Aqrar Xidmətlər Agentliyi

# ÇUĞUNDUR BİRƏCİYİ
## (Chaetocnema concinna Marsh.)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Birəciklər kiçik 1,5-2,5 mm böyüklükdə böcəkdir. Bədəni tutqun rəngdə, metal parlaqlığına malikdir. Dal ayaqları atlandırıcı tipdədir. Dişi fərd torpağın üst səthinə 4-12 yumurta qoyur. Ümumilikdə 200-240 yumurta qoya bilir. Yumurtadan çıxan sürfələr bitkinin kökləri ilə qidalanır. Yaz isti və quru keçdikdə temperatur 8-9 $^0$C-ə çatdıqda qışlama yerindən çıxır. Qışlamadan çıxan zərərverici yarpağın üstündə qidalanaraq çoxsaylı kiçik çökəkliklər əmələ gətirir. Əvvəlcə alaq otları ilə qidalanaraq çuğundur üzərinə keçir. Cücərtilərlə qidalanır, bitkinin böyümə nöqtəsini zədələyir. Yarpaq ayası quruyur. İsti və quru havalarda daha sürətli inkişaf edir. Bitkinin kütləvi məhv olmasına səbəb olur.

## Mübarizə tədbirləri

- Davamlı sortlardan istifadə etmək;
- Alaq otlarını məhv etmək;
- Optimal vaxtda səpinin və yığımın təşkili;
- Dərin dondurma şumu aparmaq.

**Təsiredici maddəsi** Deltametrin (0,05-0,075 l/ha), İmidakloprid (0,1-0,2 l\ha), Lambda siqalotrin(0,07 l/ha), Diazinon (0,8 l/ha), Dimetoat (0,5-1 l/ha) və s. preparatların biri ilə kimyəvi mübarizə aparıla bilər.



**Yetkin fərd**



**Zədəsi**